

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 192 (23.354)

12 oktyabr 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət başçılarını salamlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.

* * *

Oktyabrın 11-də Aşqabadda məhdud tərkibdə iclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası keçirilib.

Dövlətimizin başçısı iclasda iştirak edib.

* * *

Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

Azərbaycan Prezidenti İlham Əliyev qəbulda iştirak edib.

* * *

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfəri başa çatıb.




İcmal

## Milli-mənəvi dəyərlərə və tariximizə ehtiram, möhtəşəm infrastruktur, çoxşaxəli iqtisadiyyat

### Ötən ayın ümumi mənzərəsi də bu reallıqları əks etdirir

*Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi böyük strateji hədəflərin uğurla həyata keçirildiyi Naxçıvan Muxtar Respublikasında qarşıya qoyulan vəzifələrin icra olunması, bütün sahələr üzrə əldə edilən ardıcıl nailiyyətlər qədim diyarı yeni-yeni zirvələrə doğru istiqamətləndirir. Ulu öndərimizin işıqlı ideyalarına bağlılıqla, yüksək əzmkarlıqla, vətənpərvərliklə həyata keçirilən sosial-iqtisadi islahatlar, infrastruktur layihələri səmərəli nəticələr verir, şəhərlərlə yanaşı, ən ucqar kəndlər belə, abadlaşır, insanların həyat şəraiti hər gün daha da yaxşılaşır. Bu gün fəxrlə deyə bilərik ki, artıq muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını yenidən qurulub, abadlaşdırılıb. Həmin yaşayış məntəqələrində sakinlərin firavan yaşayışı üçün hər cür şərait yaradılıb, göstərilən dövlət dəstəyi, mövcud əlverişli biznes mühiti mindən çox yeni ailə təsərrüfatının fəaliyyətə başlamasına yol açıb, insanların torpağa, yurda bağlılığı artıb.*



Bütün bunların fonunda milli və mənəvi dəyərlərimiz də ən yüksək səviyyədə yaşadılır, Naxçıvanın qədim dövlətçilik tarixi, zəngin mədəniyyəti və müasir inkişaf səviyyəsi İslam dəyərlərinə münasibətdə də özünü göstərir.

Sentyabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində inşa edilən məscid kompleksinin tikintisi ilə tanış olub. Məscidin daxilində və fasadında işlərin keyfiyyətlə aparılması, xüsusilə mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

Muxtar respublikamız kəskin kontinental iqlimə malik olduğuna görə burada payız-qış mövsümünə hazırlıq böyük əhəmiyyət kəsb edir. Hər il bununla əlaqədar konkret hədəflərin müəyyənləşdirilməsi, müvafiq tapşırıqların verilməsi, müəssisə və təşkilatların qışa hazırlığı mövsümü uğurla başa vurmağa, əhalinin qış aylarında rahatlığının təmin olunmasına imkan verir. Sentyabrın 7-də Naxçıvan Muxtar Respublikasında 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə də bu məsələlər diqqət mərkəzində olub.

Ali Məclisin Sədri aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib. Diqqətə çatdırılıb ki, əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən xüsusi diqqət yetirilməli, zəruri ehtiyatlar yaradılmalıdır.

Bu gün muxtar respublikamızda İslam dini elmi cəhətdən öyrənilir və təbliğ edilir. Aşura mərasimləri İslamın dəyərlərinə uyğun qeyd olunur.

Sentyabrın 10-da Ali Məclisin Sədri Naxçıvan şəhərindəki Cümə məscidində keçirilən Aşura mərasimində iştirak edib. Mərasimdə "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ehsan verilib.

Bu gün muxtar respublikamızda yüksəliş və tərəqqini təmin edən regional inkişaf strategiyası uğurla həyata keçirilir. Həmin tədbirlərin tərkib hissəsi olaraq Şahbuz rayonunun Badamlı qəsəbəsində də kompleks quruculuq işləri görülüb. 48 mənzilli 6 yaşayış binası əsaslı təmir olunub, qəsəbə mərkəzi, məktəb binası və xidmət mərkəzi tikilib, avtomobil yolu yenidən qurulub, mənzillər dayanıqlı təbii qaz, elektrik enerjisi və rabitə xidməti ilə təmin edilib. Ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsi olan müasir Badamlı qəsəbəsində şəhər infrastrukturu yaradılıb. Sentyabrın 11-də qəsəbədə avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib.

Ali Məclisin Sədri burada yaradılan şəraitlə tanış olub. Həmin gün Ali Məclisin Sədri "Badamlı" Mineral Sular Zavodunun inşası ilə maraqlanıb, zavodda işlərin ilin sonuna qədər başa çatdırılması, ərazinin abadlaşdırılması və yaşıllıqların salınması barədə tapşırıqlar verib.

Naxçıvanda bütün istiqamətlər üzrə inkişafın davamlı xarakter alması iqtisadi-humanitar sahələrdə respublikamızın tərəfdaşı olan ölkələrlə əlaqələrin daha da genişləndirilməsinə şərait yaradır. Qonşu ölkələrlə yanaşı, qabaqcıl Avropa dövlətlərinin də yüksək səviyyəli diplomatları qeyd olunan sahələrdə əməkdaşlıqda maraqlı olduqlarını vurğulayırlar.

Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyre, sentyabrın 24-də isə Gürcüstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

Dövrümüz yeni tələblər, müasir iqtisadi təfəkkürə əsaslanan axtarışlar, yeni sosial-iqtisadi stimullar, yeni motivasiya tədbirləri, inkişaf ssenariləri və dinamika tələb edir. Bütün bunlar isə gələcəyə hesablanmış inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi olan uğurlu təhsil siyasəti ilə mümkündür. Məhz buna görə də Naxçıvanda daim insan kapitalına investisiya qoyuluşu həyata keçirilir, nəticədə, bütün sosial sferalarda, xüsusilə gələcəyimizi müəyyənləşdirən təhsildə real imkanlar yaradılır. Görülən işlərin davamı kimi, sentyabrın 16-da muxtar respublikada Bilik Günü Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin yeni binasının istifadəyə verilməsi ilə qeyd olunub.

Ali Məclisin Sədri muxtar respublikanın təhsil ictimaiyyətini Bilik Günü münasibətilə təbrik edib, təhsilin prioritet inkişaf istiqamətlərindən danışıb. Muxtar respublika rəhbəri AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçilməsi, şagirdlərin muzeylərə ekskursiyaların təşkili, çağırışaqədərki hərbi hazırlıq və fiziki tərbiyə dərslərinə diqqətin artırılması barədə tapşırıqlar verib.

Ötən əsrin 70-ci illərində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan tarixi-mədəni irsimizin qorunması, tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi, onların cəmiyyətə tanıdılması siyasəti bu gün uğurla aparılır. Cəmşid Naxçıvanski Muzeyi binasının yenidən qurulması da bu mühüm mərama xidmət edir.

Sentyabrın 23-də Naxçıvan şəhərində Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə kollektivi təbrik edib, AMEA Naxçıvan Bölməsi tərəfindən Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinin, eləcə də Araz-Türk Respublikasının öyrənilməsi və tədqiq olunması, gənclərin, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının muzeyə ekskursiyalarının təşkili barədə tapşırıqlar verib.

Qədim diyarımızın turizm potensialının təbliğində mühüm rol oynayan Naxçıvan Muxtar Respublikası Turizm Departamenti artıq tarixi binada fəaliyyət göstərir. Sentyabrın 23-də bu münasibətlə tədbir keçirilib.

Ali Məclisin Sədri iclas zalında turizm şirkətləri üçün təlim və seminarların, eləcə də ali təhsil müəssisələrinin Turizm və otelçilik ixtisası tələbələrinin iştirakı ilə görüşlərin keçirilməsi, muxtar respublikanın turizm potensialı haqqında internet saytlarında və sosial şəbəkələrdə təbliğat işlərinin aparılması barədə tapşırıqlar verib.

Ulu öndərimiz ölkəmizə rəhbərliyinin hər iki dövründə milli dəyərləri milli dövlət quruculuğunun aparıcı elementinə çevirib. Bu gün müstəqil Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında bu dəyərlər qorunub yaşadılır. Sentyabrın 23-də Naxçıvan şəhərində yeni fəaliyyətə başlayan Milli Dəyərlər Muzeyi də bu sahədə görülən işlərin davamıdır.

Ali Məclisin Sədri muzeydə yaradılan şəraitlə maraqlanıb, AMEA Naxçıvan Bölməsinə və Mədəniyyət Nazirliyinə muzey fondunun zənginləşdirilməsi barədə müvafiq tapşırıqlar verib.

2019-cu il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb, Fondun nizamnaməsi və müşahidə şurasının üzvləri təsdiq olunub. Muxtar respublikada mediaya dövlət dəstəyinin verilməsi istiqamətində fəaliyyət göstərəcək belə bir mühüm dövlət qurumunun yaradılması Naxçıvanda kütləvi informasiya vasitələrinin inkişafına böyük qayğının növbəti nümunəsi kimi diqqəti cəlb edir.

Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun müşahidə şurasının ilk iclası və media nümayəndələri ilə görüş keçirilib.

Ali Məclisin Sədri Fondun müşahidə şurasına media nümayəndələri tərəfindən səsləndirilən təkliflərin nəzərə alınması və icrası barədə tapşırıqlar verib, qarşıda duran vəzifələrdən danışıb.

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması arıçılığın inkişafında da uğurlu nəticələrin əldə edilməsinə şərait yaradıb. Hazırda muxtar respublikada arı ailələrinin sayı 74 mindən çoxdur. Hər il Naxçıvan şəhərində "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi arıçılar üçün geniş imkanlar açır. Sentyabrın 28-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey

Ardı 2-ci səhifədə

Kompleksində növbəti festival keçirilib.

Festivalda iştirak edən Ali Məclisin Sədri arıçılarla söhbət edib, bal alıb, onların qayğıları ilə maraqlanıb. Ali Məclisin Sədri nümunəvi arıçılıq təsərrüfatlarının təcrübəsinin yayılması, arıçılığın elmi əsaslarla öyrənilməsinə diqqətin artırılması, eləcə də Naxçıvan Dövlət Universitetində muxtar respublika arıçıları ilə birlikdə maarifləndirici seminarın keçirilməsi barədə tapşırıqlar verib.

Naxçıvan kəndləri bu gün başdan-başa abadlaşdırılır, burada yeni sosial obyektlər istifadəyə verilir. Bu qayğıdan Babək rayonunun Kültəpə kəndinə də pay düşüb. İki il bundan əvvəl yaşayış məntəqəsinə yeni su kanalının çəkilməsi torpaqların su təminatını xeyli yaxşılaşdırıb. Bu gün isə Kültəpə kəndi qəsəbə simasındadır. Kənddaxili yollar asfaltlanıb, məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib, rabitə və elektrik xətləri yenilənib. Bütün bunlar insanların rahat və təhlükəsiz yaşayışına xidmət edir.

Sentyabrın 30-da Ali Məclis Sədri Kültəpə kənd tam orta məktəbinin yeni binasının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Kültəpə kənd avtomobil yolunun açılışını edib.

Muxtar respublikada Ali Məclis Sədri tərəfindən qarşıya qoyulan hər bir vəzifənin vaxtında icrası, abadlaşdırılan kəndlərimizdə yaradılan möhtəşəm şəraitin qorunub saxlanılması, kənd təsərrüfatının yeni meyarlar əsasında inkişaf etdirilməsi ümumi inkişafımıza da əsaslı töhfələr verir. Ardıcıl və səmərəli fəaliyyətin ötən sentyabr ayında da əldə olunmuş uğurlu nəticələri seçilmiş yolun nə qədər düzgün olduğunu bir daha təsdiq edir. Bütün bunlar həm də Naxçıvanda sabitliyin, əmin-amanlığın, sıx birliyin nəticəsində mümkün olub. Muxtar respublikamızda dövlət qayğısı ilə əhatə edilən sakinlər daha əzmlə çalışaraq inkişaf, yüksəliş proseslərinin fəal iştirakçılarına çevrilirlər. İnsanlar şəhərlərimizdə, kəndlərimizdə aparılan quruculuq işlərini ulu öndərimiz Heydər Əliyev siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər. Nəticədə, dövlət-cəmiyyət birliyi muxtar respublikamızı daha böyük uğurlara aparır.

✍ **Rauf KƏNGƏRLİ**

*Qars müqaviləsi 1921-ci ilin sentyabr və oktyabrında Qarsda keçirilmiş konfransdakı danışıqların nəticəsi olaraq Cənubi Qafqaz respublikaları və Sovet Rusiyasının iştirakı ilə Türkiyə hökuməti arasında həmin il oktyabrın 13-də imzalanmışdır. Bu müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında digər məsələlər, xüsusən də ərazi-sərhəd problemi həll olundu. Bu müqavilənin əsas müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə üst-üstə düşürdü. Qars müqaviləsi Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş müddəaların təsdiq edilməsidir. Müqaviləyə görə, Türkiyənin şimal-şərq sərhədləri dəyişilməz qaldı. Türkiyə ərazi verilməsi baxımından heç bir güzəştə getmədi. Naxçıvanla bağlı məsələ öz ədalətli həllini tapdı.*

## Muxtariyyət tariximizdə mühüm siyasi əhəmiyyət kəsb edən
# Qars müqaviləsi

Ermənistan-Türkiyə müharibəsində daşnakların məğlubiyyəti nəticəsində Türkiyənin regionda hərbi və siyasi nüfuzunun artması Sovet Rusiyasını Ermənistanı tezliklə sovetləşdirməyə məcbur etdi. Ermənistanın daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1918-1920-cı illərdə ermənilər silahlı qüvvələrdən istifadə edərək Naxçıvanda qırğınlar törətsələr də, əhalini ram edə bilmədilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilə ilə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edildi. 1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı və iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzur müsəlman əhalisinin güclü narazılığına səbəb oldu. Ermənilərin alçaq niyyətlərinə təcrübədə bələd olan Naxçıvan əhalisi bu diyarın Azərbaycandan qoparılmasına qarşı etiraza qalxdı. Bu bəyanat Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılandı.

Vəziyyətin kəskinləşdiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Naxçıvana gələn Behbud ağa Şahtaxtinski burada yerləşən türk nümayəndələri ilə münasibətləri normallaşdıraraq onlarla birgə Naxçıvanın Ermənistan tərəfindən nəzarətə götürülməsinin qarşısını almaq üçün fəaliyyətə başladı. Behbud ağa Şahtaxtinskinin keçirdiyi mitinqlərdə əhalinin böyük əksəriyyəti Naxçıvanın Azərbaycan SSR-in himayəsində müstəqil sovet respublikası kimi təşkil edilməsi arzusunda olduqlarını bildirmişdi. Ermənistan Respublikası Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi və Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil sovet respublikası kimi tanıdığını bildirdi. Daşnakların ona qarşı ərazi iddialarından imtina edildiyi göstərildi. Rusiya tərəfi də müəyyən siyasi səbəblərdən Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq Türkiyə tərəfinin təkliflərini, Azərbaycan bolşevik rəhbərlərinin bir sıra üzvlərinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı. Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruriləşdirdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasına çalışan Behbud ağa Şahtaxtinskinin fəaliyyətini xüsusi qeyd etməliyik. Onun Rusiya XKS-nin sədri V.İ.Leninə göndərdiyi 1 mart 1921-ci il tarixli teleqram-məktubunda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ, Zaqatala, Borçalı, Qarayazı düzü, Dağıstan, Şimali Qafqaz müsəlman xalqlarının milli tərkibi, sayı haqqında məlumat verilir. O, bu məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan narahatlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. B.Şahtaxtinskinin təklifləri V.İ.Lenini maraqlandırmış və o, məsələnin RK(b)P MK Siyasi Bürosunda müzakirə edilməsi barədə göstəriş vermişdi. Bu zaman Türkiyə nümayəndə heyəti Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq üçün Moskvaya gəlmişdi. Nümayəndə heyətinə əvvəlcə Bəkir Sami bəy, sonra isə Yusif Kamal bəy rəhbərlik edirdi. Fevralın 26-da başlayan danışıqlar martın 16-da "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi ilə nəticələndi. Müqavilə 16 maddə və 2 əlavədən ibarət idi. Həmin gün RK(b)P MK Siyasi Bürosu B.Şahtaxtinskinin təkliflərini bəyənərək Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikası yaradılması haqqında qərar qəbul etdi. Moskva müqaviləsinin üçüncü maddəsinə əsasən Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Müqavilənin şərtlərinə görə, Azərbaycan onun protektoratını üçüncü dövlətə verə bilməzdi. Bu şərt Türkiyə tərəfinin təkidi ilə qəbul edilmişdi və gələcəkdə Naxçıvanın Ermənistana verilməsinin qarşısını almaq məqsədi daşıyırdı.

Moskva danışıqlarında Azərbaycanın RSFSR-dəki səlahiyyətli nümayəndəsi Behbud ağa Şahtaxtinskinin də əməyi və xidməti olub. Rusiya Moskva konfransında Azərbaycanın iştirakını təkid etsə də, Moskvada olan Behbud ağa Şahtaxtinski bunun əleyhinə olub. Rusiya-Türkiyə danışıqları ərəfəsində Rusiyanın məqsədi Azərbaycan və Ermənistanı danışıqlara cəlb etmək və onları Türkiyəyə qarşı qoymaq idi. Lakin Rusiyanın istəyi baş tutmadı. Türkiyə Ermənistanın bu danışıqlarda iştirakına razı deyildi, Azərbaycanla isə heç bir problemin olmadığını bildirirdi. Azərbaycan isə bu danışıqlarda iştirak etmək istəmirdi.

Moskva müqaviləsinin imzalanmasının böyük tarixi əhəmiyyəti vardır. İlk növbədə, bu müqavilə Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri həll etdi. Rusiya və Türkiyə sıx ittifaqda birləşdi, təbii müttəfiqə çevrildilər. Moskva müqaviləsi Azərbaycanın bütövlüyünü qorudu və Naxçıvanın ərazi mənsubiyyəti məsələsinə aydınlıq gətirdi.

Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər öz hüquqi həllini tapdı. Bundan sonra Rusiya çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə imzalansın. Lakin Türkiyə istəyirdi ki, üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalasın. 1920-1921-ci illərdə Cənubi Qafqazın tam sovetləşdirilməsi və bu respublikalarda siyasi hakimiyyətin faktiki olaraq Sovet Rusiyasının nəzarətinə keçməsi, Türkiyəni Sovet Rusiyasının təklif etdiyi formatda müqavilə imzalamağa məcbur etdi. Türkiyənin bu formatda danışıqlara getməsinin başqa səbəbləri də var idi. İlk növbədə, Türkiyə Moskva müqaviləsini imzalamaqla özü üçün çox mühüm bir neçə məsələni həll etmişdi.

Aparılan diplomatik danışıqlar və yazışmalardan sonra Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə konfransın 1921-ci il sentyabrın 26-da Qars şəhərində keçirilməsi razılaşdırıldı. AK (b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə Xalq fəhlə-kəndli nəzarəti komissarı B.Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Azərbaycan diplomatiyası çalışırdı ki, Qarsda güclü təmsil olunsun. Behbud ağa Şahtaxtinskinin konfransda iştirakı faktının özü Sovet Azərbaycanı rəhbərliyinin bu məsələyə böyük əhəmiyyət verdiyini göstərirdi. Lakin Azərbaycan Kommunist Partiyasının rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan S.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda Behbud ağa Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Lakin Nəriman Nərimanovun bu məsələ ilə bağlı prinsipial mövqeyi sayəsində Behbud ağa Şahtaxtinski fəaliyyətini davam etdirə bildi.

Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi. Qars danışıqları çox gərgin və prinsipial keçdi, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etdilər. Türkiyə nümayəndə heyəti üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif etdi. RSFSR-in nümayəndəsi Y.Qanetski bir ümumi müqavilənin bağlanmasında israr edirdi və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Y.Qanetskinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaların xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi. Qeyd etməliyik ki, RSFSR bu istiqamətdə Azərbaycan SSR ilə hələ 1920-ci il sentyabrın 30-da "hərbi və maliyyə-iqtisadi ittifaq" haqqında müqavilə bağlamışdı.

Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzaladı. Müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq, vətəndaş hüquqları məsələlərinin sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Onun xeyli hissəsi qaçqınlar probleminin nizamlanması və hərbi ərazilərin dəyişdirilməsi, razılığa gələn tərəflər arasında iqtisadi, mədəni və konsulluq əlaqələrinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdi.

Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Naxçıvanın ərazisi müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində müəyyən edilirdi: "(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (bu stansiya Ermənistan SSR-ə qalacaq), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayrıcısını (4108), Cəhənnəmdərəsi çayını, Bağırsaq dağının suayrıcısını (6607 və ya 6587) keçərək, "Rod." (Bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Küküdağa (10282) və [nəhayət] keçmiş Naxçıvan qəzasının şərqi inzibati sərhədində (qurtarır)".

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və təbeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi.

Qars müqaviləsi müddətsiz imzalanmış və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir.

1926, 1937 və 1978-ci illərdə Naxçıvan MSSR-in konstitusiyaları qəbul edilmişdir. Bu konstitusiyalarda Naxçıvan MSSR-in siyasi, hüquqi və iqtisadi sisteminin əsasları müəyyən edilmişdir. Müstəqillik dövründə isə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul olunmuşdur. Bu Konstitusiyada Naxçıvan Muxtar Respublikasının statusu "Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır" şəklində təsbit olunmuşdur.

***"Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir"***, – deyən ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılmasını daim diqqətdə saxlamışdır.

1991-ci il yanvar ayının 11-də ulu öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırmışdır. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaratmışdır.

Yaranmasının 95 illiyi qeyd olunan Naxçıvan Muxtar Respublikası bu gün hərtərəfli inkişaf mərhələsinə yüksəlmişdir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində blokadada yaşasa da, ulu öndərin siyasi xəttinə sədaqət Naxçıvan Muxtar Respublikasında ərzaq, enerji və müdafiə təhlükəsizliyini tam təmin edib. Qədim diyarın dövlətçilik tarixi, mədəniyyəti, abidələri hərtərəfli öyrənilir, tədqiq olunur, gələcək nəsillərə çatdırılır. Bu gün qədim Azərbaycan torpağı Naxçıvan Nuhun vətəni, bəşəriyyətin beşiyi, 5-7 minillik şəhərsalma tarixi, elm və təhsil məkanı, ən əsası isə müasir inkişafı ilə dünyanın mühüm turizm mərkəzinə çevrilmişdir.

*Ermənistanın Naxçıvana qarşı iddialarının heç bir hüquqi əsası yoxdur və bu iddialar beynəlxalq hüquq normalarına ziddir. Həm Moskva, həm də Qars müqavilələri Naxçıvanın toxunulmazlıq hüququnun əsasıdır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Moskva və Qars müqavilələrində muxtariyyətin əsasları, eyni zamanda Naxçıvan Muxtar Respublikasının ərazisi təsdiq olunmuş, bu ərazinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ təsbit edilmişdir".***

**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*




# Naxçıvanda dəmir yolu nəqliyyatı inkişaf etdirilir

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 7 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 13-ü ölkəmizdə dəmiryolçuların peşə bayramı kimi qeyd edilir.*

Dəmir yolu təsərrüfatının sürətli inkişafı dövrü ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf edir. O dövrdə ümummilli liderimizin şəxsi təşəbbüsü ilə dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə başlanıldı. Dahi rəhbərin dəmir yoluna verdiyi böyük əhəmiyyət, onun inkişafına göstərdiyi qayğı qısa zamanda öz bəhrəsini vermiş, yeni stansiyalar və vağzal binaları inşa olunmuşdu. Əgər 1969-cu ilə qədər dəmir yolunda 159 stansiya var idisə, qısa müddətdə onların sayı 176-ya çatmışdı. Bu dövrdə çəkilmiş yeni dəmir yolu xətlərinin uzunluğu 482,8 kilometrə, elektrikləşdirilmiş sahənin uzunluğu isə 1284 kilometrə çatdırılmışdır.

O illərdə Naxçıvan Muxtar Respublikasında da dəmir yolunun müasirləşdirilməsi diqqətdə saxlanılmış, artan yük və sərnişin daşınmasına olan tələbatı təmin etmək, nəqliyyat xidmətini təşkil etmək məqsədilə 1976-cı ildə dəmir yollarının Naxçıvan Hissəsinin mərkəzi aparatı İmişli stansiyasından Naxçıvan şəhərinə köçürülmüşdür. 1988-ci ildə isə Culfa-Şərur sahəsinin elektrikləşdirilməsi yük və sərnişin daşınmasında elektrovoz dartısından istifadəyə imkan yaratmışdır.

Ötən əsrin 90-cı illərində baş verən hadisələr, xüsusilə də erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin 20 faizinin işğal edilməsi dəmir yoluna da ciddi ziyan vurmuşdur. Belə ki, 240 kilometrdən artıq dəmir yolu xətti erməni təcavüzünə məruz qalmışdır. Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisindən təcrid edilərək blokadaya düşmüş və dəmir yolu əlaqəsi kəsilmişdir.

1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərən ulu öndər dəmir yolu infrastrukturunun dağılmasının qarşısını almış, daxili yük və sərnişin daşınmasında dəmir yolu nəqliyyatından istifadə olunmuşdur.

Ümummilli liderin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi, dəmir yolu nəqliyyatı da özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən intensiv şəkildə həyata keçirilir. Bu qayğıdan muxtar respublikanın dəmiryol təsərrüfatına da xeyli pay düşmüşdür. Son illər Naxçıvan, Şərur, Şahtaxtı, Culfa, Ordubad sərnişin vağzalı binalarında, Dəstə, Yaycı, Culfa, Dərəşam, Nehrəm, Qarabörk, Naxçıvan, Şahtaxtı, Qıvraq, Şərur, Vəlidağ stansiyalarının İdarəetmə mərkəzlərində, Məhdud Məsuliyyətli Cəmiyyətin inzibati binasında, əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada əsaslı yenidənqurma və təmir işləri aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" muxtar respublikada dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf Proqramına uyğun olaraq mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-Rabitə sexi binası əsaslı təmir edilərək istifadəyə verilmişdir. 2014-cü ildə isə İnfrastruktur İdarəsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmiş, Naxçıvan, Qarğalıq və Qıvraq dartı





yarımstansiyalarında aparılan əsaslı təmir işləri başa çatdırılmışdır.

Dəmir yolu nəqliyyatı sisteminin idarə olunmasında ixtisaslı kadrların hazırlanmasına xüsusi diqqət yetirilir. Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr üçün müasir əyani dərs vəsaitləri ilə təmin olunan auditoriyalar istifadəyə verilmişdir. Dəmiryolçu peşəsinin sirlərinin dərindən öyrənilməsi, praktik biliklərin artırılması və kadrların hazırlanması məqsədilə hər il tələbələr dəmir yolunun ayrı-ayrı strukturlarında istehsalat və diplom praktikası keçirlər. Hazırda universiteti və kolleci bitirmiş 21 məzun dəmir yolunun bölmələrində müvafiq vəzifələrdə çalışır.

2016-cı il fevralın 23-də Tehran şəhərində "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında" Saziş imzalanmışdır. İmzalanan sazişə əsasən 2017-ci il dekabr ayının 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd qatarı fəaliyyətə başlamışdır. Bununla əlaqədar Bakı şəhərindən 3 yeni sərnişin vaqonu gətirilmişdir. Naxçıvan və Culfa stansiyalarında sərnişinlərin gömrük və sərhəd buraxılışı qeydiyyatının asanlaşdırılması məqsədilə yeni müasir avadanlıqlar alınaraq quraşdırılmış, stansiyalarda əlavə olaraq miqrasiya və viza xidmətləri yaradılmışdır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Həmçinin İran İslam Respublikası ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikasına gətirilən və aparılan yüklərin daha ucuz qiymətə daşınması və səmərəli nəqliyyat marşrutları təmin edilmişdir. Belə ki, Saraks üzərindən Orta Asiyaya və Bəndər-Abbas limanına marşrutlar işlənmiş, yükdaşıma tariflərinə güzəştlər olmuşdur.

Muxtar respublikamızda aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyindəki obyektlərin də simasını xeyli dəyişib. Bu tədbirlərin davamı olaraq 2018-ci il aprelin 2-də Ordubad dəmiryol sərnişin vağzalı və Yol Sahəsinin inzibati binaları, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binaları, yük anbarı, sərnişin və yük platformaları kompleks tikinti, yenidənqurma və əsaslı təmir işlərindən sonra istifadəyə verilmişdir. Bakı şəhərindən Avropa istehsalı olan 8 yeni oturacaq tipli sərnişin vaqonu alınıb gətirilmişdir. Həmçinin ötən il Texniki İnzibati Binaların Təmir Tikinti İdarəsi tərəfindən Aza, Gülüstan və Naxçıvançay Təhlükəsizlik komandaları inzibati binalarında, eləcə də Dəstə İdarəetmə Mərkəzi binasında aparılan əsaslı təmir işləri yüksək səviyyədə başa çatdırılmışdır.

Bu il xidməti ərazidə zəruri infrastrukturların yaradılması və maddi-texniki təminatın yaxşılaşdırılması məqsədilə Ordubad-Culfa sahəsində hərəkət edən yük-sərnişin qatarlarında dartı vasitəsi kimi istifadə olunması məqsədilə 1 ədəd ÇME-3 seriyalı 6069 saylı yeni manevr teplovozu Gürcüstan və Türkiyə üzərindən keçməklə iyunun 12-də muxtar respublikaya gətirilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, cari ilin ötən 9 ayında muxtar respublikada dəmir yolu nəqliyyatından 121 min 106 sərnişin istifadə etmiş, 255 min 377 ton yük daşınmışdır.

*Peşə bayramını qeyd edən dəmiryolçular bundan sonra da öz işlərini günün tələbləri səviyyəsində quracaq, yükdaşıma ehtiyacını ödəməklə, sərnişinlərə yüksək səviyyədə nəqliyyat xidməti göstərəcək və muxtar respublikanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.*

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

*14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

# Məhsulların keyfiyyətinə nəzarət günün tələbidir

*İqtisadiyyatın inkişafında standartlaşdırmanın rolu ildən-ilə artmaqdadır. Standartlaşdırmanın əsas məqsədi istehsalın səmərəliliyinin artırılmasından, istehlakçılara çatdırılan məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsindən, ətraf mühitin qorunmasından və ticarətdə texniki maneələrin aradan qaldırılmasından ibarətdir.*

Ölkəmizdə standartlaşdırma sahəsinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra bu sahəyə diqqət və qayğı daha da artırılmış, hüquqi baza möhkəmləndirilmiş, yeni qanunlar qəbul edilmişdir.

Standartlaşdırma sahəsində həyata keçirilən islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasında standartlaşdırmanın inkişafı beynəlxalq standartlardan aktiv istifadə ilə yanaşı, müasir tələblərə cavab verən yeni milli standartların yaradılması istiqamətlərində uğurla aparılır. Ölkəmizdə keyfiyyətə nəzarət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilməkdədir. Hazırda ölkəmizdə beynəlxalq standartların tətbiqi ilə bağlı mühüm proqramların qəbulu və icrası, milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni milli standartların tətbiqi prosesi uğurla icra olunmaqdadır. Standartlaşdırmanın təkmilləşdirilməsi ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.



Naxçıvan Muxtar Respublikasında da keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Sakinlərin keyfiyyətli məhsul və xidmətlərə çıxış və seçim imkanlarının yaxşılaşdırılmasına dair verilmiş tapşırıqlara uyğun olaraq istehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartlara uyğun aparılır. Bu sahədə ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazanın yaxşılaşdırılması da daim diqqət mərkəzindədir.

Beynəlxalq normalar səviyyəsində standartların tətbiqinə geniş imkan yaradan amillərdən biri də muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir standartlara cavab verən maddi-texniki baza ilə təchiz olunmasıdır. Muxtar respublikada istehsal olunan məhsulların yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran əsas vəzifələrdəndir. Məqsəd istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olmaq, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirməkdir. Bu isə standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə dəstəklənməkdədir.

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını fəaliyyətində əsas istiqamət kimi qəbul edir.

Standartlaşdırma sahəsi üzrə ixtisaslı kadr potensialının formalaşdırılması və maddi-texniki bazanın yaxşılaşdırılması muxtar respublika rəhbərinin daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi üçün müasir memarlıq üslubunda inşa olunmuş yeni inzibati binanın istifadəyə verilməsi də həyata keçirilən tədbirlərin davamıdır. Zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 56 iş otağı, akt zalı, laboratoriya otaqları, reyestr və kadastrın saxlanması otağı, kitabxana, arxiv, təlim-treninq otağı, ölçmə vasitələrinin saxlanması və yoxlanma otaqları, standartlar üzrə informasiya otağı, standart və patent fondu yerləşir. Laboratoriyalarda elektrik, təbii qaz və su sayğaclarının yoxlanılması, eləcə də təzyiq, temperatur, çəki və həcmölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıqlar quraşdırılmışdır.

Hazırda agentliyin standartlar fondunda Azərbaycan Respublikasında qüvvədə olan 20 mindən çox dövlətlərarası, 1000-ə yaxın dövlət standartı mövcuddur ki, bu hüquqi bazadan da aktiv istifadə olunmaqdadır.

Standartların təsərrüfat subyektlərinə çatdırılması, maarifləndirilməsi üzrə fəaliyyət çərçivəsində, ümumilikdə, 147, o cümlədən 17 hüquqi şəxs və 130 fiziki şəxslə müqavilə bağlanmış və 87 müəssisədə istehsal olunan 146 məhsulun etiket layihəsi texniki normativ-hüquqi aktlara uyğun olaraq 3 dildə hazırlanmışdır. Agentliyin standartlar fondunda mövcud olan standartların tələbləri ilə sahibkarları, tələbələri tanış etmək və bu sahədə maarifləndirmək məqsədilə seminarlar keçirilmişdir.

Müəssisələrin gəlirlərindən, fəaliyyət sahəsindən, işinin həcmindən və bazardakı mövqeyindən asılı olmayaraq, fəaliyyətlərinin ən səmərəli yolu standartların tələblərinə uyğun idarəetmə sisteminin qurulmasıdır. Muxtar respublikada əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, qida təhlükəsizliyi sahəsində aktiv fəaliyyət və ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti***

# Növbəti təlimə yekun vurulub

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Dövlət qulluğunda etik davranış qaydaları" adlı təlim keçirilib. Oktyabrın 10-da start verilən və 2 gün davam edən təlimə Maliyyə Nazirliyinin tabeliyində olan qurumlarda çalışan 14 dövlət qulluqçusu cəlb olunub. Əsas məqsəd dövlət qulluğunda etikanın əhəmiyyəti, dövlət qulluqçularının riayət etməli olduğu əsas etik davranış qaydaları barədə gənc dövlət qulluqçularını məlumatlandırmaqdır.



Təlimdə "Dövlət qulluğunda etika" və "Peşə etikası və etiket qaydaları" adlı mövzulara dair slaydların təqdimatı ilə çıxışlar dinlənilib, qrup şəklində iş və müzakirələr aparılıb.

Sonda fəal iştirak edən dövlət qulluqçularına sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Sözü Vətən, dili Azərbaycan deyən Araz həsrətli şair



*Şeir və poemaları, dünənli, bu günlü və sabahlı zəngin poeziyası ilə həmişə yaddaşlarda qalacaq əsl xalq şairi, böyük Vətən oğlu Məmməd Araz... Zəngin yaradıcılığı ilə insanı düşündürən, kədərləndirən, sevindirən görkəmli ziyalı. Keşməkeşli, şərəfli, bütövlükdə, Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşayan heyrətamiz şəxsiyyət... Qələmi "söz qardaşı", əlində ən etibarlı söykənəcək, möhkəm dayaq bilən, qələmi ilə, sözün əsl mənasında, sözə xidmət edən sənətkar. Qüdrətli xalqının qəlbində daimi yuva quran dağ kimi yenilməz, əyilməz Xalq şairi.*

Tərcümeyi-halını şeirlərində gizlədən, öz yazılarının baş qəhrəmanı olan, yaşadığı həyatı sətirlərə işləyən bu qeyri-adi sənətkarın sənətinin də başlanğıcı, uşaqlıq və ilk gənclik illərinin istinadgah yeri məhz qədim Naxçıvan diyarı olub. Onun sənətkar ruhu Şahbuz dağlarının özünəməxsus ab-havası, yayda Günəşi, qışda qarı bol olan təbiətindən qidalanıb, poetik təəssüratları Çadırdaş ətəyindən, Nursu bulağından ilhamlanıb, Arazın tərənnümü ilə daha da zənginləşib. Bir sözlə, bütün dünyaya "ürəyinin bir parçası" adlandırdığı Naxçıvandan baxıb, şeirlərində doğulub boya-başa çatdığı qədim diyarı sonsuz sevgi və məhəbbətlə vəsf edib:

*Sinəmdə o yerin dağ havasıdır,*
*Qaynar bulaqları qaynar qanımda.*
*Mənim ürəyimin bir parçasıdır*
*Doğma Şahbuzum da, Naxçıvanım da.*
*Mən burdan baxıram bütün aləmə,*
*Bu yerin qışı da yazımdır mənim.*
*Axar çaylarına lal sudur demə,*
*Onlar min nəğməli sazımdır mənim.*

Məmməd Araz ucalığı, dünyagörüşü atası İnfil kişinin halallığı və zəhmətkeşliyi, anası Cahan xanımın səmimiyyəti, şirin söhbəti, nənəsi Zöhrə xanımın milli folklor nümunələrini həvəslə öyrətməyi ilə formalaşıb, insanlıq zirvəsinə çatıb. Gələcək poeziyasının, zəngin yaradıcılığının ilk cücərtiləri də məhz bu vaxtdan özünü göstərib. Bununla da nəsillərdən-nəsillərə keçib gəlmiş bu müqəddəs ata ocağının layiqli varisi, etibarlı qoruyucusu yetişib.

Doğulub böyüdüyü Nursu kəndinin təmiz havası, suyu, bolsulu bulaqları, könüloxşayan dağları, yaylaqları Məmməd Arazı o qədər ilhamlandırıb ki, elə ilk qələm təcrübələrini də məktəbdən sonra qoyun-quzu otardığı bu sirli dağların döşündə qələmə alıb. Milli şeirimizin "daş əsgəri" ilk şeirlərini yaşadığı kəndin "sal daşları üstündə" yazıb. Sonralar onun yaradıcılığında aparıcı mövzulardan birinə çevrilən daş motivi, şairin qələmindən çıxmış və məşhur zərbi-məsələ çevrilmiş "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" misrası ilə bütövlük, Vətənə, torpağa bağlılıq, əsl vətəndaşlıq himni kimi səslənir. Vətəni Azərbaycanın zəngin tarixi keçmişi, bu günü, Araz dərdi Məmməd Araz poeziyasının əsas mayasını təşkil edir. Vətəninin sərhədləri onun sözünün sərhədindən başlanır və bu sərhədlə də bitir. Həmin söz ki büllur su, qaynar bulaq kimi aşıb-daşır, ürəklərə yol tapır. Bu şeirlərin hamısı sevgi, insanlıq, dostluq, lirika, insani hisslərlə yoğurulub.

Hər şair millətini, xalqını, Vətənini poetik sözün ucalığı ilə təmsil edə bilmir. Bu mənada, Məmməd Araz Azərbaycan poeziyasında xalqın ürəyində yer tapan, orada əbədi məskən salan şairlərimiz içərisində ön sıralarda durur. Əsl soyadı İbrahimov olsa da, özünə "Araz"ı təxəllüs kimi seçir. Əvvəlcə Vətəninə və onun bir parçası Araza bağlılığı özünə bu təxəllüsü seçməyi zəruri edir. Bundan sonra səsi, sözü, öz sağlam və mənəvi ziyalı potensialı ilə əsl "Araz şairi" kimi xalqına, ən əsası isə həqiqətə xidmət edir.

Məhəmməd Füzuli və Mirzə Ələkbər Sabir məktəbindən faydalanan Məmməd Araz sözün məsuliyyətini dərindən dərk etməyi, bədii sənətin qüdrətini yaşatmağı bacarmağı, zəngin və ötkəm şeirləri ilə ən böyük insan haqlarının tərənnümçüsü olmağı onlardan öyrənib, lakin özündən əvvəlki şairlərin heç birini təkrar etməyib. XX əsrin altmışıncı illərindən etibarən ana Vətəninin dərd-sərini, məhəbbət və kədəri qələmə alan şairin yaradıcılığı XX əsrin 60-90-cı illərində bir çox şairlər üçün məktəb rolunu oynayıb.

Məmməd Araz şeirinin özünəməxsusluğu da məhz onun milliliyi və müasirliyində, dərin lirizm, bəşərilik və xəlqiliyində idi. Məmməd Araz poeziyasında İkinci Cahan müharibəsindən sonrakı Azərbaycan kəndinin, kəndlisinin taleyi əsas xətt kimi keçir və obrazlı şəkildə mənalandırılır. Məhz ötən əsrin səksəninci illərinin sonlarından başlanan milli azadlıq hərəkatının ön cərgələrində qələmi ilə mübarizə aparan şairlər içərisində ön sıralarda dayanan, öz yaradıcılığı ilə xalqı ayağa qaldıran, mübarizəyə səsləyən İstiqlal şairi Məmməd Araz idi. Onun Vətənimiz haqqında ən sanballı, yaddaqalan, ilhamlı və təsirli şeirlər silsiləsindən dillər əzbəri olanlardan biri – "Azərbaycan – dünyam mənim" şeiridir:

*Azərbaycan – mayası nur, qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan" deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Bu şeirdə "Azərbaycan" sözü qürurla səslənir. Onun yaradıcılığının baş qəhrəmanı da məhz Azərbaycandır. Buna görədir ki, XX əsrin doxsanıncı illərində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Məmməd Arazın şeirləri ilə boy atır, daha da böyüyür. Vətənimizi düçar edildiyi bəlalardan qorumaq, xilas etmək və yaşatmaq üçün xalqı haraya, köməyə çağıran görkəmli söz ustasının qələmə aldığı "Ayağa dur, Azərbaycan!" şeiri poeziyamızda vətənpərvərlik mövzusunda yazılan ən yaxşı əsər, ölkəmizin müstəqillik uğrunda mübarizə marşı kimi qiymətləndirilir. Şeirdə şairin daxili harayı, vətəndaş yanğısı hər misrada hiss olunur:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*

Özünü bu mübarizənin ön cərgəsində görən Məmməd Araz hamını, bütün Azərbaycanı mübarizəyə səsləyir. Məhz bunun nəticəsidir ki, xalqımız "ölümü ilə qalımını" ayırd edə, ayağa qalxaraq Azərbaycanın bütövlüyünü təmin edə bildi. Bununla da Azərbaycan öz müstəqilliyini qazandı, milli azadlığına nail oldu.

Ötən əsrin 80-90-cı illərində Məmməd Arazın vətəndaşlıq poeziyası yüksəldi, o, bir şair kimi xalqın ən çox sevilən sənətkarına çevrildi, hər bir şeiri böyük sevgi və rəğbətlə qarşılandı. O dövrün sərt ideoloji təqiblərinə baxmayaraq, ədəbiyyatımızda gerçəkliyi mənalı və münasib şəkildə əks etdirən "Məndən ötdü qardaşıma dəydi", "Vətən mənə oğul desə", "Yenə Arazı gördüm", "Bu millətə nə verdik ki", "Ağlama" kimi səfərbərlik və çağırış ruhlu şeirləri məhz şairin böyük ilhamının və istedadının nəticəsi idi.

Azərbaycan poetik-fəlsəfi fikrinin ən yaxşı nümunələrini yaradan Məmməd Arazın ötən əsrin 70-ci illərindən başlayaraq qələmə aldığı insan və dünya barədə fəlsəfi düşüncələri böyük tərbiyəvi əhəmiyyətə malikdir. Onun poetik irsində dünya və bəşəriyyəti düşündürən vacib problemlər şairin özünü də düşündürür, o, fikir və qayğılarının sonunda yenə də "Azərbaycan dünyasından baxır dünyaya". Bu gün misraları zərbi-məsələ, hikmətli sözlərə, musiqiyə çevrilib könlümüzü oxşayan şairin bəşəri-fəlsəfi səpkidə qələmə aldığı "Dünya sənin, dünya mənim, dünya heç kimin" şeiri də insanı "ömür-gün naxışı" ilə bəzənmiş dünyanın "gəlimli-gedimli" olduğu fikri ilə düşünməyə sövq edir.

"Ürəyimsiz kəlmə yazan deyiləm", – deyən şair səmimi, kövrək, həssas və mərd taleyi ilə həm də ürək şairi idi. Onun ürəyi poeziya ilə döyünürdü.

Poemaları da şeirləri kimi bənzərsiz olan Məmməd Araz ədəbiyyatımızda poema janrını yeni mərhələyə çatdırıb. Onun "Üç oğul anası", "Paslı qılınc", "Atamın kitabı", "Mən də insan oldum", "Qayalara yazılan səs", "Araz axır" poemaları həyati mətləblərini özündə əks etdirən, insan mənəviyyatının dərin qatlarına enib, fəal vətəndaşlıq mövqeyi və müasirlik, milli taleyimizin əhatəli təqdimi ilə yüksələn əvəzsiz nümunələrdir.

1974-cü ildən ömrünün sonunadək "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olan ədibin çoxcəhətli yaradıcılığında bədii publisistika da özünəməxsus yer tutur. Həyatın sərt reallıqlarının şeirin poetik ölçülərinə sığışmadığı bir vaxtda Məmməd Arazın şair qələmi alovlu publisist qələminə çevrildi. Onun qələminə məxsus yaradıcılıq nümunələri aradan uzun illər keçsə belə, bu gün də aktuallığını və müasirliyini itirməyib. XX əsr boyu fərqli, ideoloji sistemlərdə yaşayıb-yaratmasına baxmayaraq, ədəbiyyatda və ictimai həyatda həmişə Azərbaycançılıq mövqeyinin böyük müdafiəçisi olan Məmməd Arazın yaradıcılığı bu baxımdan misilsiz örnəkdir.

Xalqının ürəyində, düşüncəsində məskən salıb əbədi yaşamaq haqqı qazanan Məmməd Araz "Xalq şairi" fəxri adını, "İstiqlal" ordenini, Əməkdar incəsənət xadimliyini, Dövlət mükafatını Vətənə və xalqına xidmət edərək qazanıb.

Böyük söz ustadının dünyaya gəldiyi Şahbuz rayonunun Nursu kəndində şairin ev-muzeyi yaradılıb.

Məmməd Araz o şairlərdəndir ki, şəxsiyyəti, yaradıcılığı ilə "Ölməzlik" qazanıb və əsl şair kimi daim qəlbimizdə yaşayır, yaşayacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Adım Əli, soyadım Sökməndir. 2000-ci ildən bəri Türkiyə Respublikası Səhiyyə Nazirliyində çalışıram. Evli, iki uşaq atasıyam. 1997-ci il təvəllüdlü bir qızım və 2000-ci ildə dünyaya gələn bir oğlum var. Övladlarımın yaxşı təhsil almaları dövlətə, millətə və bütövlükdə bəşəriyyətə xeyir verən bir şəxsiyyət olmaları üçün əlimdən gələni edirəm. Özüm səhiyyə işçisi olduğum üçün qızım da bu sahəni seçdi və hazırda tibb bacısı kimi çalışır.*

## Naxçıvan dünya mediasında

# Gözəlliklər diyarı Naxçıvan



Oğlum da məni və bacısını nümunə götürərək həkim olmaq istəyirdi. Ancaq Türkiyədə, təxminən, 3 milyon məzundan 10-15 mini Tibb fakültəsində oxumaq imkanı qazanır. Bunu nəzərə alaraq xaricdəki bir çox universitetlərin tibb fakültələrini araşdırmağa başladım. Bunlardan biri də ***"Bir millət, iki dövlət"*** olaraq tanıdığımız qardaş ölkə Azərbaycan idi. İlk olaraq din, dil və dəyərlər baxımından doğma hiss etdiyim öz qardaş və bacılarımızın təhsil aldığı Azərbaycan Tibb Universitetini və Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini nəzərdən keçirdim.

Naxçıvandakı ali təhsil ocaqlarının səviyyəsi, təhsil şəraiti, eləcə də Türkiyədəki bir çox universitetlərlə müqavilələrinin olması (ERASMUS, MEVLANA proqramları) diqqətimi daha çox çəkdi. Seçim etdiyimiz Naxçıvan Dövlət Universitetində başqa təhsil ocaqlarında çətin tapıla biləcək imkanlardan biri də tələbələrin müəllimlərlə birbaşa dialoq qurmaq fürsətinin olmasıdır. Nəqliyyatın rahatlığı, təhsilin hər keçən gün daha da yüksək səviyyəyə qaldırılması bizim üçün inamın ən yaxşı ünvanı, qardaş ölkəmiz Azərbaycanın incisi olan "GÖZƏLLİKLƏR DİYARI NAXÇIVAN"ı və Naxçıvanın gözəl insanlarını əvəzedilməz etdi.



Niyə Naxçıvan? Çünki təhlükəsizlik baxımından son dərəcə etibarlı bir yer olan Naxçıvan valideynlər üçün də əsas seçim nöqtəsidir. İnternet vasitəsilə Naxçıvan Dövlət Universitetinin telefon nömrəsini tapıb xarici tələbələrin təhsil aldığı fakültə ilə əlaqə yaratdıq. İstanbuldan İğdıra təyyarə, İğdırdan da Naxçıvana quru yolu ilə 3 tələbə və onların valideynləri ilə birlikdə gəldik. Bununla da çoxdan arzuladığımız qardaşlarımıza qovuşduq. Maşından düşdüm və diz çökərək qardaş Naxçıvan torpağını öpdüm, havasını, qoxusunu həsrəti yox edərcəsinə dəfələrlə içimə çəkdim və çox təsirləndim...

Naxçıvanda çox gözəl qarşılandıq. Əvvəlcə Naxçıvan Dövlət Universitetində olduq, qeydiyyatdan keçib Tibb fakültəsi ilə tanış olduq. Artıq bu ildən övladlarımız Naxçıvan Dövlət Universitetində təhsil almağa başlayıblar. Oğlumun burada oxumağına çox şadam. Burada xarici tələbələrə necə isti münasibətlə yanaşdıqlarını gördükdən sonra könül rahatlığı ilə ölkəmə qayıtdım...

Bir neçə kəlmə Naxçıvan barədə yazmaq istəyirəm. Qarşımızda tarixi və mədəni quruluşunu pozmadan inkişafa əhəmiyyət verən çox gözəl bir şəhər var idi. Ailəmlə birlikdə Naxçıvanı gəzmək fürsətimiz oldu. Şəhər parklar və bağlara, geniş küçələrə, bir çox tarixi və mədəni binalara sahibdir. Naxçıvanda gəzib görmək üçün bir çox yerlər var. Biz əvvəlcə Nuh Peyğəmbərin uyuduğu qəbri ziyarət edib, Nuh tufanı ilə əlaqədar geniş məlumat aldıq. Başqa bir vacib ziyarət yerimiz də müqəddəs "Qurani-Kərim"də adı keçən Əshabi-kəhf mağarası oldu.

Eramızdan 3-5 min il əvvəl meydana gələn, tarixə şahidlik edən Naxçıvandakı tarixi qalaya baş çəkdik və bir çox məlumatla tanış olub qədim geyim və əşyaları görmək fürsəti tapdıq. Bu yer bizi tarixi zaman yolçuluğuna çıxardı. Öyrəndik ki, burada müxtəlif festivallar təşkil olunur və Naxçıvanın ləzzətli məhsulları gələnlərə təqdim edilir. Festivallardakı gözəl vizual görüntülər insanları mənəvi cəhətdən xoşbəxt edir. Mən bu gözəllikləri təşkil edənlərə minnətdarlığımı bildirirəm.

Naxçıvanda ziyarət etmək üçün yalnız bu qədərmi yer var? – Xeyr! Astma və digər xəstəliklərdən əziyyət çəkən insanların müalicəsi üçün çox gözəl şəkildə inşa edilən Duzdağ Fizioterapiya Mərkəzini ziyarət etdik. Sonra Azərbaycanın qurucusu, böyük dövlət xadimi Heydər Əliyevin adını daşıyan parkda olduq.

Özümüzü təmiz və dinc yerdə rahat hiss etdik. Naxçıvanlılar bizi bizdən daha çox sevirlər. Kiminlə görüşsək, "Qonağımız olun, biz qardaşıq", – deyirdilər. Türkiyəyə qayıtdığımızdan bəri hər kəsə Naxçıvandan bəhs edirik. Onlara bu gözəl diyarı mütləq gəlib görmələrini, övladlarını yüksək keyfiyyətlə təhsil verən Naxçıvan ali təhsil ocaqlarında oxutmağı tövsiyə etdik. Xüsusilə söyləyirəm: Türkiyəmin gözəl xalqı, Naxçıvan istər təhsil sahəsində, istərsə də digər sahələrdə övladlarınızı könül rahatlığı ilə əmanət edə biləcəyiniz ən doğru, etibarlı ünvanlardan biridir. Burada məzun olan tələbələrin bir çoxu bu gün işlə təmin olunub, bəziləri isə müxtəlif ölkələrdə təhsillərini davam etdirirdilər.

İnşallah, bir gün Naxçıvandan olan qardaşlarımızı, yoldaşlarımızı Türkiyədə qonaq etmək mənə nəsib olar.

**Əli SÖKMƏN**
*Təkirdağ*
*siyasalbirikim.org*


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 697